# Dünya universitetlərinin 2016-cı il üzrə yeni reytinq cədvəli

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*

Böyük Britaniyanın "Times Higher Education" (THE) jurnalı mayın 4-də 2016-cı il üzrə dünyanın ən nüfuzlu universitetlərinin növbəti reytinq cədvəlini açıqlayıb. Son 6 ildə fasiləsiz olaraq nüfuzlu universitetlərin reytinq cədvəlinə Amerikanın Harvard Universiteti başçılıq edir. İkinci yerdə ABŞ-ın Massaçusets Texnologiya İnstitutu, üçüncü sırada Stenford Universiteti qərarlaşıb. Böyük Britaniyanın Kembric və Oksford universitetləri müvafiq olaraq dördüncü və beşinci yerləri tutublar. Onluqdakı sonrakı 5 yeri də Amerika universitetləri - Kaliforniya Berkli Universiteti (6-cı), Prinston Universiteti (7-ci), Yel Universiteti (8-ci), Kolumbiya Universiteti (9-cu) və Kaliforniya Texnologiya İnstitutu (10-cu) tutub. Builki sıralamada Britaniya ali məktəbləri öz mövqelərinin zəiflədiblər. Kembric Universiteti ötənilki 2-ci sıradan 4-ə, Oksford isə 3-cü sıradan 5-ci sıraya geriləyib. 2016-cı ildə ilk 100-lükdə Amerikadan 43, Böyük Britaniyadan 10, Almaniyadan 6, Çin, Fransa, Yaponiya və Niderlanddan 5, Avstraliya , Kanada, Honkonq və Rusiyadan 3 ali məktəb yer alıb. Builki reytinq siyahısına bütövlükdə Türkiyənin 11, İranın 8, Rusiyanın 13, Ukraynanın 2 və Belarusun 1 universiteti daxil edilib. İlk ən yaxşı 100 universitet arasında Rusiyanın 3 ali məktəbi - M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Sankt-Peterburq Dövlət Universiteti və Moskva Fizika Texnik İnstitutu yer alıb. Reytinq tərtib olunarkən dünyanın 142 ölkəsindən elmin bütün sahələri üzrə 10 min alim arasında keçirilmiş rəy sorğularının nəticələrinə istinad olunub. Rəyi soruşulan bütün müəllimlərdən tədris və elmi fəaliyyət sahəsində ən yaxşı uğurları olan 15 universitetin adlarını çəkmələri xahiş olunub.

Nəşrin rəsmi açıqlamasında qeyd olunur ki, ilkin məlumatların formalaşması prosesində maksimum dərəcədə şəffaflığa üstünlük verilib. Dünyanın 100 ən yaxşı universiteti sırasında bu il Asiyadan 17 ali məktəb yer alıb. Bu isə ötənilkindən 7 ali məktəb çoxdur. Təhlilçilərə görə, Asiya universitetləri getdikcə Avropa ali məktəblərini dünya reytinqlərində sıxışdırmağa başlayıb.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə |
|---|---|---|
| 1. | Harvard University | ABŞ |
| 2. | Massachusetts Institute of Technology | ABŞ |
| 3. | Stanford University | ABŞ |
| 4. | University of Cambridge | Birləşmiş Krallıq |
| 5. | University of Oxford | Birləşmiş Krallıq |
| 6. | University of California, Berkeley | ABŞ |
| 7. | Princeton University | ABŞ |
| 8. | Yale University | ABŞ |
| 9. | Columbia University | ABŞ |
| 10. | California Institute of Technology | ABŞ |
| 11. | University of Chicago | ABŞ |
| 12. | University of Tokyo | Yaponiya |
| 13. | University of California, Los Angeles | ABŞ |
| 14. | University of Michigan | ABŞ |
| 15. | Imperial College London | Birləşmiş Krallıq |
| 16. | University of Pennsylvania | ABŞ |
| 17. | Cornell University | ABŞ |
| 18. | Tsinghua University | Çin |
| 19. | ETH Zurich – Swiss Federal Institute of Technology Zurich | İsveçrə |
| 20. | University College London | Birləşmiş Krallıq |
| 21. | Peking University | Çin |
| 22. | Johns Hopkins University | ABŞ |
| 23. | University of Toronto | Kanada |
| 24. | London School of Economics and Political Science | Birləşmiş Krallıq |
| 25. | New York University | ABŞ |
| 26. | National University of Singapore | Sinqapur |
| 27. | Kyoto University | Yaponiya |
| 28. | Duke University | ABŞ |
| 29. | University of Washington | ABŞ |
| =30. | University of Illinois at Urbana-Champaign | ABŞ |
| =30. | Lomonosov Moscow State University | Rusiya Federasiyası |
| =30. | Northwestern University | ABŞ |
| 33. | Carnegie Mellon University | ABŞ |
| 34. | University of Texas at Austin | ABŞ |
| =35. | University of Wisconsin-Madison | ABŞ |
| =35. | University of California, San Diego | ABŞ |
| 37. | University of British Columbia | Kanada |
| 38. | University of Edinburgh | Birləşmiş Krallıq |
| 39. | McGill University | Kanada |
| =40. | Georgia Institute of Technology | ABŞ |
| =40. | LMU Munich | Almaniya |
| 42. | University of California, San Francisco | ABŞ |
| 43. | King's College London | Birləşmiş Krallıq |
| 44. | Pennsylvania State University | ABŞ |
| =45. | University of California, Davis | ABŞ |
| =45. | University of Hong Kong | Honkonq |
| =45. | Seoul National University | Cənubi Koreya |
| 48. | École Polytechnique Fédérale de Lausanne | İsveçrə |
| =49. | University of Manchester | Birləşmiş Krallıq |
| =49. | University of Melbourne | Avstraliya |
| =49. | University of Minnesota | ABŞ |
| 51-60. | Delft University of Technology | Niderland |



Harvard Universiteti



Massaçusets Texnologiya İnstitutu



Stenford Universiteti



Kembric Universiteti



Oksford Universiteti

| | | |
|---|---|---|
| 51-60. | Heidelberg University | Almaniya |
| 51-60. | Humboldt University of Berlin | Almaniya |
| 51-60. | Karolinska Institute Sweden | İsveç |
| 51-60. | University of Maryland, College Park | ABŞ |
| 51-60. | University of North Carolina at Chapel Hill | ABŞ |
| 51-60. | Ohio State University | ABŞ |
| 51-60. | Osaka University | Yaponiya |
| 51-60. | Purdue University | ABŞ |
| 51-60. | Technical University of Munich | Almaniya |
| 61-70. | University of Amsterdam | Niderland |
| 61-70. | Australian National University | Avstraliya |
| 61-70. | École Normale Supérieure | Fransa |
| 61-70. | KU Leuven | Belçika |
| 61-70. | Michigan State University | ABŞ |
| 61-70. | University of Southern California | ABŞ |
| 61-70. | University of Sydney | Avstraliya |
| 61-70. | Tohoku University | Yaponiya |
| 61-70. | Washington University in St Louis | ABŞ |
| 71-80. | Boston University | ABŞ |
| 71-80. | Brown University | ABŞ |
| 71-80. | University of California, Santa Barbara | ABŞ |
| 71-80. | Chinese University of Hong | Honkonq |
| 71-80. | Free University of Berlin | Almaniya |
| 71-80. | Germany Fudan University | Çin |
| 71-80. | Hong Kong University of Science and Technology | Honkonq |
| 71-80. | University of Pittsburgh | ABŞ |
| 71-80. | Shanghai Jiao Tong University | Çin |
| 71-80. | Texas A&M University | ABŞ |
| 81-90. | Indiana University (Bloomington) | ABŞ |
| 81-90. | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya |
| 81-90. | Leiden University | Niderland |
| 81-90. | London Business School | Birləşmiş Krallıq |
| 81-90. | Nanyang Technological University | Sinqapur |
| 81-90. | National Taiwan University | Tayvan |
| 81-90. | Pierre and Marie Curie University | Fransa |
| 81-90. | RWTH Aachen University | Almaniya |
| 81-90. | Saint Petersburg State University | Rusiya Federasiyası |
| 81-90. | Tokyo Institute of Technology | Yaponiya |
| 81-90. | University of Warwick | Birləşmiş Krallıq |
| 81-90. | Zhejiang University | Çin |
| 91-100. | Arizona State University | ABŞ |
| 91-100. | University of Colorado Boulder | ABŞ |
| 91-100. | École Polytechnique | Fransa |
| 91-100. | Insead | Fransa |
| 91-100. | Lund University | İsveç |
| 91-100. | Moscow Institute of Physics and Technology | Rusiya Federasiyası |
| 91-100. | Panthéon-Sorbonne University – Paris 1 | Fransa |
| 91-100. | University of São Paulo Brazil | Braziliya |
| 91-100. | Utrecht University | Niderland |
| 91-100. | Wageningen University and Research Center | Niderland |